*PEDAQOGIKA ELMLƏRI*

**UOT:37.01.**

# VALEOLOJİ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ MÜƏLLİMİN PEDAQOJİ USTALIĞININ ROLU

***B.e.d. prof. Sultanov Rauf Lütvəli oğlu***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***rsultanov@bk.ru***

***Xülasə:*** *Müasir dövrdə elm və təhsilimiz sürətlə inkişaf edir.Son 50 il müddətində əldə edilmiş nailiyyətlər keçmiş dövrün bir neçə əsri müddətində əldə edilmiş nailiyyətlərə bərabərdir. Bu isə insan cəmiyyətinin intellektual səviyyəsinin böyük sürətlə artdığını göstərir.*

*Elmimizin və təhsilimizin inkişafı ilə əlaqədar olaraq son illərdə valeologiya elmi təşəkkül tapmış və formalaşmağa başlamışdır.*

*Valeoloji təhsilin keyfiyyətinin yüksəldilməsi müasir beynəlxalq təcrübə və milli ənənələr əsasında onun məzmununun və strukturunun yeniləşdirilməsi, təlim və tərbiyənin vahidliyinin təmin olunması qarşıda duran ən mühüm vəzifələrdən sayılır. Son illər valeologiya elminin təkmilləşdirilməsi istiqamətində aparılan işlər daim diqqət mərkəzində saxlanılır.*

*Valeologiya respublikamızın elm və təhsil müəssisələrində nisbətən yeni fəndir. Müasir dövrdə dünyada nöqsanlı uşaqların çoxluq təşkil etdiyi zamanda təhsilverənlərin və təhsilalanların valeoloji tərbiyəsinin vacibliyi çox böyük mənəvi əhəmiyyət kəsb edir.*

**Açar sözlər**: müasir müəllim,peşə səriştəliyi, pedaqoji bacarıqlar, pedaqoji fəaliyyət, pedaqoji ünsiyyət.

**Ключевые слова:** современный учитель, профессиональное образование, компетенции, педагогические навыки, педагогический активитирист, педагогическое общение.

**Keyvords:** modern teacher,vocational,competences,pedagogical skills,pedagogical astivitirist, pedagogical communicatio

## Giriş

Azərbaycan Dövlət Pedaqoji Universitetində bu istiqamətdə apardığı işlər təqdirə layiqdir. Valeologiya fənni artıq ikinci ildir ki, magistraturada təhsil prosesində tədris olunur. İlk dəfə olaraq respublika miqyasında bu sahə üzrə fənn proqramı hazırlanmış, mühazirə mətnlərinin elektron versiyası tərtib edilmiş, tədqiqat işi universitetin elmi işlərin planına daxil edilmiş ,magistrantlar dissertasiya mövzusu kimi tədqiqat işləri aparırlar. Professor-müəllim heyətinin məqalələri elmi əsərlərdə nəşr olunur və dərsliyin hazırlanması üzərində işlər aparılır. Hal-hazırda ADPU respublika miqyasında bu sahənin inkişaf etdirilməsi istiqamətində aparıcı təşkilata çevrilmişdir.

Azərbaycanda valeologiya elminə dair ilk tədqiqat işləri 2010-cu illərdə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun "Ali və orta ixtisas təhsili" şöbəsində aparılmışdır.

Azərbaycanda hal-hazırda valeologiya elminin inkişafının birinci dövrü Azərbaycan Dövlət Pedaqoji Universitetində 2019-cu ildə onun tədrisinin həyata keçirilməsi ilə davam etdirilir. Bu sahədə universitetdə professor R.L. Sultanov ilk tədqiqat işlərinə başlamış, magistrantlar isə magistr dissertasiyaları, ilə əlaqədar tədqiqatlarını aparırlar.

## Tədqiqatın materialları

Valeologiya biliklərinin öyrənilməsi bütün dövrlər və xalqlar üçün daim diqqət mərkəzində olan, hamının və hər kəsin məşğul olduğu problemlər içərisində ən aktual məsələlərdən biridir. Valeoloji tərbiyə heç vaxt öz aktuallığını itirməyən əbədi bir problem

olsa da zaman-zaman baş verən ictimai-tarixi, iqtisadi-siyasi proseslərdən asılı olaraq dəyişən, onlara uyğun olaraq yeni-yeni tələblər verilən bir prosesdir. Cəmiyyətin həyatında köklü dəyişikliklər baş verəndə insan sağlamlığına valeoloji baxışlar diqqət mərkəzində olur, axtarışlar, polemikalar dövrü başlayır.

Azərbaycan cəmiyyətində də insanlara valeoloji biliklərin verilməsi bu sahədə bacarıq və vərdişlərin aşılanması və valeoloji tərbiyənin formalaşdırılması təhsil sistemində mövcud zəruriyyətdən yaranmışdır. İnsanların valeoloji təfəkkürü dəyişdikcə oların düşüncə,davranış tərzi də buna uyğun dəyişməlidir.

Valeologiya tədrisi prosesində təlimin keyfiyyətini yüksəldilməsi məqsədilə bir çox vasitələrdən istifadə edilir.Burada müəllim təhsilalanların fəallığını,o cümlədən idraki fəallığını artırmalı və yeni valeoloji təfəkkürün inkişaf etdirilməsinə zəmin yaratmalıdır.Bu zaman müəllimin pedaqoji ustalığı mühüm rol oynayır və təlimin səmərəliliyini artırır.

Valeologiya inteqrativ fənn olduğundan müəllimin pedaqoji ustalığı fənlərarası əlaqələrin yaradılmasında müstəsna rol oynayır. Təhsil müəssisələrində tələbələrin əldə etdikləri valeoloji, nəzəri biliklərin ,bacarıq və vərdişlərin aşılanmasında müəllimin pedaqoji ustalığının özünəməxsus yeri vardır. Ona görə də pedaqoji kadrların ,o cümlədən müəllim hazırlığının səviyyəsini artırmağa diqqət yönəldilməlidir. Pedaqoji ustalığı yüksək olan müəllimin bünövrəsi və yüksək təməl əsasında qurulduğu üçün onların verdiyi biliklər uzun ömürlü olur.

Peşəkar müəllimin pedaqoji ustalığı yüksək olduğu üçün onlar mövcud biliklərin ilkin bünövrəsini, fənnin təməlini yaradılmasına xüsusi diqqət yetirir. Təhsil alanların sonrakı illərdə qazandıqları bilik, bacarıq və vərdişlərin səviyyəsi onların əvvəlki dərslərdə qazandıqları təməl biliklərdən, bacarıq və vərdişlərdən çox asılı olur.

Sağlamlıq anlayışına dair Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən verilmiş tərifdə" Sağlamlıq sadəcə olaraq xəstəliyin ,yaxud fiziki qüsurun olmaması deyil, tam, bütöv fiziki, psixi və sosial rifah halıdır".

Pedaqoji nəzəriyyədə müəllimin ustalığı anlayışının mahiyyətinə müxtəlif yanaşmalar vardır. Birinci yanaşmada pedaqoji prosesdə əsas yeri metod tutur, ikinci yanaşmada pedaqoji prosesdə müəllimin şəxsiyyəti həlledicidir. Hər iki yanaşmada müəllimin ustalığı barədə aydın təsəvvürə malik olmaq mümkündür. Beləliklə metod təlim-tərbiyə prosesində ondan istifadə edən müəllimin şəxsiyyəti ilə bilavasitə bağlıdır. Onları bir-birindən ayrı nəzərdən keçirmək düzgün deyildir.

Pedaqoji ustalığa yiyələnməkdən ötrü valeologiyanı tədris edən hər bir müəllim nəzəri və metodik hazırlığa malik olmalı , müəllim-şagird münasibətlərini düzgün qurmalı ,prosesin qanunauyğunluqlarından, qanun və prinsiplərindən xəbərdar olmalı və faydalanmalı, təlim və tərbiyə texnologiyalarından səmərəli şəkildə istifadə etməlidir.

Peşəkar müəllim ən əlverişsiz şəraitdə şagirdlərin lazımı tərbiyəliliyinə, inkişaf və bilik səviyyəsinə nail olur. Müəllimin ustalığı hər şeydən əvvəl tədris prosesini təşkil etmək bacarığından asılıdır. Pedaqoji ustalığın mahiyyəti müəllimin şəxsi mədəniyyətində, biliyində, onun təlim və tərbiyənin, pedaqoji texnikanın priyomlarına və qabaqcıl təcrübəyə yiyələnməsində, hərtərəfli nəzəri hazırlığında özünü göstərir.

Valeologiya sahəsində pedaqoji usta müəllim təhsil prosesində insanda sağlamlıqla bağlı emosional münasibəti inkişaf etdirməyi bacarmalıdır. Bunun üçün usta müəllim valeoloji biliklərə dair tələblərdə müsbət maraq yaradır.Fərdi sağlamlığın təkmilləşdirilməsinə, habelə ətrafdakıların sağlamlığına qayğılı münasibət formalaşdırır.

Pedaqoji ustalığa yiyələnmiş müəllim pedaqoji valeologiyanın aşağıdakı vəzifələrini mükəmməl bilməli və təbliğ etməyi bacarmalıdır.

❖ Təhsilalanların sağlamlıq və sağlam həyat tərzi ilə bağlı zəruri bilikləri öyrətməsi üçün onlarda möhkəm, düzgün və davamlı motivasiyanın yaranmasına nail olmalıdır;

❖ Təhsil müəssisələrində valeoloji təlimin təşkilinin məzmununa görə onun korreksiyasını düzgün həyata keçirilməlidir;

❖ İnsan orqanizmin funksional imkanlarından istifadə etməklə fiziki tərbiyənin metodlarnı mükəmməl öyrənmək əsasında insan sağlamlığının qorunub saxlanması üçün təbii sağlamlıq vasitələrindən əhatəli geniş istifadə etməyi bacarmalıdır;

❖ Təhsilalanların fiziki sağlamlıq səviyyəsini valeoloji nöqteyi nəzərdən düzgün qiymətləndirməyi, təhlil aparmağı, ümumiləşdirməyi, monitorinqləri təşkilini , psixoloji məsləhətləşmə aparmağı, məşğələlər vasitəsilə sağlamlıq işlərini təşkil etmək üçün maarifləndirici tədbirlər və s. aparmağı bacarmalıdır.

❖ Ailənin sağlamlığı üçün sağlam psixoloji iqlimin yaradılması və valeoloji tərbiyə işinin düzgün həyata keçirilməsinə nail olmalıdır.

Müəllimin fəaliyyət istiqamətində müstəqil düşünə bilən, həyati bacarıqlara yiyələnmiş şəxsiyyətin formalaşdırılması mühüm yer tutmalıdır.

Müəllimin pedaqoji ustalığı peşə səriştəliyindən çox asılıdır. Tədris prosesində valeologiya fənni üzrə biliklərin, metodologiyanın, didaktikanın, pedaqoji ünsiyyətə aid bacarıq və vərdişlərin ahəngdarlığını tələb edir.

Valeologiya fənnini tədris edən müəllim öz fəaliyyəti prosesində valeoloji bilikləri, bu sahədə bacarıq və vərdişləri formalaşmasını həyata keçirilməsi yollarını bilməlidir. Müəllim həmçinin kommunikativ münasibətlərdə pedaqoji ünsiyyət yollarını mükəmməl bilməli və onların həyata keçirilməsini təmin etməyi bacarmalıdır.

Respublikamızda valeologiya fənni yenicə təşəkkül tapdığı bir dövrdə peşəkar usta valeoloji müəllim müasir informasiya vasitələrindən yetərincə istifadə etməyi bacarmalıdır. Bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsini informasiya vasitələrindən yetərincə istifadə etməklə valeoloji biliklərin respublikamızın elm sahəsinə inteqrasiyasını həyata keçirilməsi peşəkar usta müəllimlərin əsas vəzifələrindən biridir.

Valeologiya çox şaxəli inteqrativ fənn olduğu üçün müasir təhsil alanların psixologiyasını yetərincə bilməlidir. Pedaqoji usta müəllimin fəaliyyətinin uğurlu göstəriciləri sırasında tələbə-müəllim əməkdaşlığı, dərs prosesində əlverişli emosional mühitin yaradılması, tələbələrdə tədqiqatçılıq bacarıqlarının inkişafına yönəlmiş motivasiyanın formalaşdırılması kimi məsələlər də aiddir.

Müasir pedaqoji usta müəllimin fərqləndirici əlamətləri daim özünü təkmilləşdirilməsi, özünü tənqidlə dərin bilik ‚geniş məlumatlı" erudisiyası "və yüksək mədəniyyəti onun ustalığından xəbər verir.

Bütün müəllimlərin səriştəlik səviyyəsi eyni ola bilməz. Fəailiyyət dövründə müəllimlərin peşəkarlıq səviyyəsi göstəricilərinin fərqli olması təbiidir. Ona görə də valeoloji bilikləri daha mükəmməl bilicisi olan təhsil təcrübəsində daha səriştəli müəllimlər valeologiya fənninin tədrisinə cəlb edilməlidir.

Pedaqoji usta müəllim tədris prosesində ümumi valeologiyanın və xüsusi valeologiyanın insan sağlamlığına təsir edən amillərini xüsusilə insan həyatı üçün təhlükəli ünsürləri araşdırmağı bacarmalıdır.

Peşəkar müəllim ümumi valeologiyanın elmlər sırasında özünəməxsus problemlərini, yerini, predmetini, üsullarını, məqsədini, vəzifələrini, təşəkkül tarixini və onun metodologiyasını müəyyənləşdirilməyi bacarmalıdır. Ümumi valeologiya insan amili kimi insanın biososial təbiəti və onun sağlamlığının təminatındakı roluna dair bilikləri tədris edir.

Xüsusi valeologiya: tibbi, bioloji, sosialoji, ekoloji, ətraf mühit, psixoloji, fəlsəfi, pedaqoji, fiziki tərbiyə və fiziki mədəniyyət, mədəniyyətşunaslığ, ailəvi, təhsil və s. aid valeoloji elm sahələrindən ibarətdir.

Öz sağlamlığını və ətrafdakıların sağlamlığını ləyaqətlə qoruyub-mühafizə etmək üçün hər bir vətəndaş valeoloji biliklərə yiyələnməli və həyat şəraitində daim ondan istifadə etməlidir.

Təcrübə göstərir ki, təhsilalanların valeoloji biliklərin mənimsənilməsinin səmərəliliyini təmin etmək bir sıra mühüm amillərə xüsusi diqqət yetirməlidir.

İlk növbədə müəllimlərin peşə ustalığını yüksəldilməsi, onların yeni təlim texnologiyaları ilə təmin edilməlidir. Bu zaman təlimin keyfiyyətini yüksəltmək üçün kompüterləşdirilmiş, ağıllı löhvələrlə təmin edilmiş auditoriyaların yaradılmasına diqqət artırılmalıdır. Müəllim valeologiyanın tədrisi prosesində təhsilalanların təfəkkürünün inkişaf etdirilməsində onların müstəqil yaradıcılığı üçün əlverişli şərait yaratmalıdır. Auditoriyadan kənar müxtəlif məzmunlu valeoloji biliklərin təbliğinə dair tədbirlərin keçirilməsinə daim fikir verilməlidir.

Sağlam həyat tərzinin təşkilini müəyyən edən amillər mövcuddur. Peşəkar müəllim insan sağlamlığının obyektiv sosial şərait və ictimai-iqtisadi amillərlə əlaqəsini elmi nöqteyi-nəzərdən təhlil etməyi bacarmalıdır. Sağlam həyat tərzi ilə ailə-məişət və peşəkar fəaliyyətin konkret həyat fəaliyyəti şəraitində mövcud olan əlaqələrə diqqət artırılmalıdır.

İnsanın sağlamlığı ilə onun dünyagörüşü və mədəniyyəti ilə müəyyənləşən şəxsi motivasiya amillərinə və onların sağlam həyata və sağlam həyat tərzinə oriyentasiya dərəcəsinə(bələdləşmə) və s. məsələlərə dair valeoloji biliklərin təbliğinə önəm verməlidir.

**Nəticə**

Aparılmış araşdırmalar zamanı aşkar edilmişdir ki, valeoloji təhsilin keyfiyyətinin yüksəldilməsi müasir beynəlxalq təcrübə və milli ənənələr əsasında onun məzmununun və strukturunun yeniləşdirilməsi ən mühüm vəzifələrdən sayılır.Pedaqoji ustalığa yiyələnməkdən ötrü valeologiyanı tədris edən hər bir peşəkar müəllim nəzəri və metodik hazırlığa malik olmalıdır.

Valeologiya fənnini tədris edən pedaqoji usta müəllim öz fəaliyyəti prosesində valeoloji bilikləri, bu sahədə bacarıq və vərdişləri formalaşmasını həyata keçirilməsi yollarını mükəmməl bilməlidir.

Pedaqoji usta müəllim tədris prosesində ümumi valeologiyanın və xüsusi valeologiyanın insan sağlamlığına təsir edən amillərini, xüsusilə də insan həyatı üçün təhlükəli ünsürləri araşdırmağı bacarmalıdır.

***Ədəbiyyat***

1. Bayramov Q.H. Valeologiya: Yeni elm sahəsinin təşəkkülü//APTPİ-nun “Elmi əsərləri”: Bakı 2008,N:1 səh 158-159.
2. Bayramov Q.H Sağlamlığa təsir göstərən amillərin təhlili// “Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji və psixoloji problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Naxçıvan,2011,səh 80-81.
3. Sultanov R.L. Təhsilalanların sağlamlığının qorunmasında və mühafizə edilməsində pedaqoji valeologiyanın imkanları//Bakı Qızlar Universitetinin “Elmi əsərlər”i Bakı 2020,cild II N:3(43)178-181səh.
4. Sultanov R.L. Pedaqoji valeologiyada təhsilalanların sağlamlığnın formalaşdırılması yolları //Naxçıvan Müəllimlər İnstitutu “Elmi əsərlər”i 2020 N:1,(59) 9-12səh.
5. Sultanov R.L. Axundov A. Ekoloji mühit və onun mühafizəsinə dair ekoloji təhsilin problemləri //Naxçıvan Müəllimlər İnstitutunun “Elmi əsərləri”i, Naxçıvan2019,N:1,səh24-28
6. Sultanov R.L. Ətraf mühitdə insan sağlamlığının qorunmasında valeoloji biliklərdən istifadənin imkan və yolları. //Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Mütərcim Bakı 2011 N:1 səh 45-49.

## THE ROLE OF THE TEACHER'S PEDAGOGICAL SKILLS IN IMPROVING THE QUALITY OF VAREOLOGICAL EDUCATION

***Professor Sultanov Rauf Lutvali oglu***

***Resume***

Research has shown that improving the quality of valeological education is one of the most important tasks in updating its content and structure based on modern international practice and national traditions. Every professional teacher of vareology must have theoretical and methodological training in order to master pedagogical skills. A master teacher of vareology must know perfectly how to implement vareological knowledge in the process of forming skills and habits in this field in the process of his activity.

## РОЛЬ ПЕДАГОГИЧЕСКОГО МАСТЕРСТВА УЧИТЕЛЯ В ПОВЫШЕНИИ КАЧЕСТВА ВАРОЛОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ

***Профессор Султанов Рауф Лутвали оглы***

***Резюме***

Исследования показали, что повышение качества валеологического образования является одной из важнейших задач обновления его содержания и структуры с учетом современной международной практики и национальных традиций. Каждый профессиональный учитель варологии должен иметь теоретическую и методическую подготовку для овладения педагогическими навыками.

Мастер-преподаватель вареологии должен в совершенстве уметь применять варологические знания в процессе формирования навыков и привычек в этой области в процессе своей деятельности.

***Biologiya və onun tədrisi texnologiyası kafedrasının 15 fevral 2021-ci il tarixli iclasın06 saylı protokolu***

***Daxil olma tarixi 09 mart 2021-ci il***

**UOT:37.**

## AKADEMİK DİSKURS NƏZƏRİYYƏSİ BARƏDƏ

***Babayevab Arzu Tahir qızı***
***Gəncə Dövlət Universiteti***
***ar_sb1@hotmail.com***

**Xülasə:** *Məqalədə akademik diskurs nəzəriyyəsi araşdırılır. İlk əvvəl yerli və xarici dilçilikdə diskurs termininin işlənməsi ilə bağlı fikirlər təhlil olunur. Məqalədə diskursun müxtəlif növləri barədə məlumat verilir və onların arasında akademik diskurs nəzəriyyəsi ətraflı müzakirə olunur. Akademik diskursun institusion diskursla eyni anlam daşıdığı da məqalədə qeyd olunur. Akademik (institusion) diskurs cəmiyyətin xüsusi tələblərinə cavab vermək üçün yaradılmışdır və akademik mühitdə insanların ünsiyyətini reallaşdırır. Akademik diskursun əsas məqsədi yüksək keyfiyyətli mütəxəssis hazırlığına yönəlmiş ali təhsil müəssisələrində professional pedaqoji ünsiyyəti inkişaf etdirməkdir. Məlumdur ki, ali məktəb çərçivəsində ünsiyyət həm müəllimlər, həm də tələbələr arasında baş verir. Məqalədə xüsusi olaraq diqqətə çatdırılır ki, ali məktəblərdə olan bütün ünsiyyətin hamısını akademik diskurs adlandırmaq olmaz. Akademik diskursa xas olan əlamətlər və akademik diskursun təhlilinə aid olan əsas yanaşmalar məqalədə müzakirə olunur.*

**Açar sözlər:** akademik, institusion, nəzəriyyə, pedaqogika, tədris, müəllim, tələbə
**Key words:**academic, institutional, theory, pedagogy, teaching, teacher, student